kaspi.-2019.-1-3 iyun.-S.22.



Dayandur Sevgin

# GÖYLƏRİN DAN YERİ SƏNSƏN

*Ustad İ.Nəsimiyə*

Şahların gözündə bu yenilməz ad,
Cəlladın qəlbinə gözəl həzz oldu.
Silkinən barmağı zahidin usdad,
Dərin soyulandan görünməz oldu.

Haqsızlar haqlını dara çəkəndə,
Niyə oynamadı bu yer-yerindən?
Nəsimi soyulan o gündən bəri,
Qan damır tarıxin vərəqlərindən.

Usdadın söylədi qüvvət qoluna,
Cəhalət qarşında dönəndə dağa.
Ənəlhəq söyləyib haqqın yoluna,
Azadlıq toxumun səpdin torpağa.

Qarşını kəsmədi hər qorxu, hədə,
Hər sözün, hər beytin qiymətli zərdi.
Səpdiyin azadlıq toxumu dədə,
Altıyüz əllii il sonra göyərdi.

“Ənəlhəq” söyləyib haqq gəzənlərin,
Edam meydanında qan yeri sənsən.
Aydınca görünür səmada yerin,
Bəlkə də göylərin dan yeri sənsən.

Duyğulu könlümdə kama çatırsan,
Kimlərin bağrını gör yarır adın.
Hər axşam günəşlə birgə yatırsan,
Hər səhər üfiqdə qızarır adın.